**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN MUSİQİ MƏDƏNİYYƏTİ KONTEKSTİNDƏ BƏSTƏKAR VASİF ALLAHVERDİYEVİN YARADICILIĞI

İxtisas: 6213.01 – Musiqi sənəti

Elm sahəsi: Sənətşünaslıq

İddiaçı: **Şanə Vüqar qızı Məmmədova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "Musiqi tarixi" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: sənətşünaslıq doktoru, professor
**Gülzar Rafiq qızı Mahmudova**

Rəsmi opponentlər: Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, sənətşünaslıq doktoru, professor
**Rəna Azər qızı Məmmədova**

sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor
**Mehriban Fikrət qızı Əhmədova**

sənətşünaslıq üzrə fəlsəfə doktoru
**Gülnar Əlfi qızı Verdiyeva**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.36 Dissertasiya Şurası

Dissertasiya şurasının sədri: sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor
___________ **Ülviyyə İsmayıl qızı İmanova**

Dissertasiya şurasının elmi katibi: sənətşünaslıq doktoru, dosent
____________ **Leyla Ramiz qızı Zöhrabova**

Elmi seminarın sədri: sənətşünaslıq doktoru, dosent
____________ **Aytac Elxan qızı Rəhimova**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi**. Azərbaycan bəstəkarlıq məktəbinin tanınmış nümayəndəsi, Xalq artisti, Əməkdar incəsənət xadimi Vasif Allahverdiyevin yaradıcılığı müasir dövrdə cərəyan edən hadisələrlə bağlıdır. Dahi Üzeyir Hacıbəylinin ənənələrini davam etdirən V.Allahverdiyev milli musiqi mədəniyyəti kontekstində türkçülük ideyaları ilə bədii təfəkkürünün xüsusiyyətlərini özündə ehtiva edən fərdi dəst-xəttini yaratmağa nail olmuşdur.

Bəstəkarın yaradıcılığı Azərbaycanda XX əsrin 90-cı illərindən başlayan yeni ictimai-siyasi mühitin təsiri altında formalaşmışdır. Azərbaycan tarixinin ən gərgin və mürəkkəb dövrü kimi səciyyələnən 1990-cı illərdə ziddiyyətli proseslərin axını bir çox sahələrdə olduğu kimi, Azərbaycan musiqi mədəniyyətinə də öz təsirini göstərmişdir. Milli özünüdərkə qayıdış, türkçülük məfkurəsinin yaradıcı insanların təfəkkürünə nüfuz etməsi musiqi məkanında müasir dövr bəstəkar nəslinin yaradıcı simasını yaratmağa müvəffəq olmuşdur.

Cəmiyyətdə baş verən dəyişikliklər və təfəkkür tərzinin yenilənməsi bilavasitə V.Allahverdiyevin bu dövrdə formalaşan yaradıcılığının əsas istiqamətləri üçün zəmin yaratmışdır. XX əsrin sonunda Azərbaycan musiqi mühitinin dünya musiqisindəki müxtəlif üslub və istiqamətlərə inteqrasiyası şəraitində sənətdə ilk addımlarını atan gənc bəstəkarın yenilik axtarışları türkçülük ideyalarının, doğma vətən obrazlarının, vətənpərvərlik mövzusunun musiqidə təzahürünə doğru yönəlmişdir. Onun düşüncə tərzinin xüsusiyyətlərini özündə əks etdirən bu məqsədyönlü yanaşması və milli dəyərlərə sadiqliyi Azərbaycan musiqi mədəniyyəti kontekstində V.Allahverdiyevin mövqeyini ifadə edərək, yaradıcılıq yolunun əsas məqsədini şərtləndirir. V.Allahverdiyevin klassik ənənələrə əsaslanmaqla, milli təfəkkür və türk xalq musiqisinin sintezinə dayaqlanması onun Azərbaycan musiqi mədəniyyəti kontekstində dəst-xəttinin fərdiləşməsini nümayiş etdirərək, tədqiqat mövzunun müasir dövr musiqişünaslığında aktuallığının göstəricisidir.

Azərbaycan musiqi mədəniyyətinin inkişafı kontekstində V.Allahverdiyevin yaradıcılığının tədqiqi bəstəkarın yaradıcı təfəkkürünün xüsusiyyətlərinin öyrənilməsi ilə əlaqədardır. Bundan irəli gələrək, V.Allahverdiyevin milli ənənələrə bağlılığı və türkçülük ideyalarına əsaslanması üzə çıxarılır.

V.Allahverdiyevin yaradıcılığının araşdırılması onun bir çox əsərlərində öz əksini tapan türkçülük məhfumu və bundan doğan ideyalarla bağlıdır. Bəstəkar əsərlərində türk xalq melodiyaları ilə milli musiqinin xüsusiyyətlərini üzvi şəkildə sintez edərək əlaqələndirməyə nail olmuşdur. Bu, V.Allahverdiyevin Azərbaycan bəstəkarları arasında fərdi dəst-xəttinin xüsusiyyətlərinin aydınlaşdırılmasına imkan verir. Onun düşüncə tərzinin və ifadə etdiyi obrazlar aləminin türkçülüyə əsaslanması müasir dövr Azərbaycan musiqi mədəniyyətində ənənələrin yeni mərhələdə davamı kimi dəyərləndirilə bilər. V.Allahverdiyevin əsərlərinin xarakterini formalaşdıran əsas cəhətlər cəmiyyətdə baş verən köklü dəyişikliklərə münasibəti, milli dəyərlərə qayıdış çərçivəsində türkçülük ənənələrinə müraciəti və öz düşüncələrini yaşadığı dövrlə əlaqələndirməsidir. Bu isə öz növbəsində XX əsr musiqisi kontekstində bir bəstəkar kimi onun yaradıcılığının araşdırılaraq öyrənilməsinə səbəb olur.

V.Allahverdiyevin türkçülük məhfumu çərçivəsində ənənələrə müraciəti mövzu müxtəlifliyi və obraz zənginliyi səviyyəsindən daha da kənara çıxaraq, türk xalq melodiyaları, orkestrləşmə vasitələri, alətlərin tembr xüsusiyyətləri və digər fərqli yanaşmalara doğru genişlənmişdir. Bir bəstəkar kimi V.Allahverdiyev "ənənə və varislik" çərçivəsində öz yanaşmalarını və düşüncə tərzinin zənginliyini ifadə etməyə nail olmuşdur. V.Allahverdiyevin türk qaynaqlarına hərtərəfli yanaşması eyni zamanda neofolklorizmin ifadəsi kimi də qəbul oluna bilər. O, müraciət etdiyi bir çox janrlarda türk xalq musiqisinin intonasiyalarını tətbiq edərək, musiqi folkloru elementlərinə əsaslanmışdır.

Çağdaş dövrdə qloballaşan dünyanın dəyişiklikləri fonunda metamorfoz proseslər hər bir bəstəkardan fərqli yanaşmaları nümayiş etdirməyi tələb edir. Bu mənada müasir dövr bəstəkarlarının dünya mədəniyyətinə inteqrasiyası onların dünyagörüşü və maraqlarının

müxtəlif dəyərlərə əsaslanması ilə bağlıdır. V.Allahverdiyev bu rakursdan çıxış edərək, varislik və mədəni dəyərlərin sintezi baxımından öz yanaşmasını müəyyənləşdirir.

Bəstəkarın düşüncə tərzi müasir dövrün musiqisi ilə yanaşı, milli dəyərlərin və türkçülük prinsiplərinin dirçəldilməsinə yönəlmişdir. V.Allahverdiyevin varislik səviyyəsində ənənələrə bağlılığı, daim yaradıcı axtarışlarda olması və müraciət etdiyi mövzulara fərdi münasibət göstərməsi bəstəkarın dəst-xəttinin formalaşmasına təsir edən amillərin araşdırılmasını aktual edir. Yəni, bəstəkarın yaradıcılığında milli xüsusiyyətlərlə türk xalq musiqisinin xüsusiyyətlərinin qovuşması onun əsərlərinin öyrənilməsini vacib edən səbəblərdəndir. Bu yalnız janr, forma-quruluş, musiqi dil və digər xüsusiyyətlər səviyyəsində deyil, eyni zamanda V.Allahverdiyevin yaradıcılığını aktual edən digər cəhətlərinin açılması, bəstəkarın türkçülük məhfumuna ən fərqli rakurslardan yanaşması işin aktuallığının əhəmiyyətli tərəfidir.

V.Allahverdiyev yaradıcılığının araşdırılması eyni zamanda müasir dövr sənətkarının mövqeyinin işıqlandırılmasını, müraciət etdiyi hər bir janr sahəsində fərqliliyini və fərdi keyfiyyətlərinin ayrıntılarını nümayiş etdirir.

Milli bəstəkarlıq məktəbinin ənənələrə əsaslanan varislik prinsiplərinin xüsusiyyətlərini öz yaradıcılığında əks etdirən Vasif Allahverdiyev fərdi dəst-xəttini formalaşdırmağa nail olmuşdur. Hazırda kamillik dövrünü yaşayan bəstəkar istənilən vəziyyətdə öz mövqeyini bildirməyə qadir olduğunu əsərlərində nümayiş etdirmişdir. O, ictimai mühitin gərgin şəraitində öz yaradıcılıq simasını formalaşdırmağı və istiqamətləndirməyi məharətlə bacarmışdır. Təsadüfi deyildir ki, V.Allahverdiyev tanınmış şəxsiyyətlərin musiqi portretini yaradan zaman onlara siyasi mövqedən deyil, məhz öz yaradıcılıq prinsipləri baxımından, yəni türkçülük məhfumunun işıqlandırılması nöqteyi-nəzərindən yanaşmışdır. Onun əsərlərini aktual edən bu keyfiyyət xüsusilə vurğulanmalıdır.

V.Allahverdiyevin bəzi müxtəlif janrlı əsərlərinə musiqişünaslar və gənc tədqiqatçılar nəzər yetirmişlər.

Bəstəkarın yaradıcılığına musiqişünas J.Qulamova "Sözlü, nəğməli Naxçıvan" adlı monoqrafiyasında [1] və elmi-publisisitik məqalələrində [2], [3], [4] müraciət etmişdir.

"Heydər Əliyev – Ömür yolu" simfonik poemasının səciyyəvi xüsusiyyətləri A.Abasovanın elmi-tədqiqat işində [5] və G.İsmayılovanın məqaləsində[6] araşdırılmışdır.

V.Allahverdiyevin "Uşaq süitası" fortepiano silsiləsinin ifaçılıq xüsusiyyətlərinə S.Mustafayevanın metodik tövsiyəsində [7] baxılmışdır.

Xor və simfonik orkestr üçün "Yüksək-yüksək təpələrə" türküsünün işləməsi A.Raufqızının [8] və A.Zamanovanın [9] məqalələrində işıqlandırılmışdır.

Azərbaycan musiqişünaslığında V.Allahverdiyev yaradıcılığının bəzi sahələrinə toxunulsa da, onun bir çox əsərləri ətraflı şəkildə araşdırılmayıb və dəst-xəttinin səciyyəvi cəhətlərini müəyyənləşdirən xüsusi elmi-tədqiqat işi yazılmayıbdır. Bəstəkarın

---

[1] Qulamova, J.E. Sənətdə atılan qoşa addım / J.E.Qulamova. – Bakı: Sözlü, nəğməli Naxçıvan, Sabah, – 2000. – s. 122-127.

[2] Qulamova, J.E. Bəstəkar ömrünün mərhələləri // Mədəniyyət. – 2018, 6 aprel. – s. 8.

[3] Qulamova, J.E. Dahi bəstəkarın sənət ənənələri yaşayır // Mədəniyyət. – 2013, 6 mart. – s. 13.

[4] Qulamova, J.E. Sənət zirvəsinə aparan uğurlu yollar // Mədəniyyət. – 2012, 1 dekabr. – s. 6.

[5] Abasova, A.R. Azərbaycan bəstəkarlarının birhissəli simfonik əsərlərinin janr və üslub xüsusiyyətləri: / sənətşünaslıq üzrə fəlsəfə doktoru dissertasiyası. / – Bakı, 2004. – 208 s.

[6] İsmayılova, G.H. Vasif Allahverdiyevin "Heydər Əliyev – Ömür yolu" simfonik poeması // "Azərbaycan mədəniyyəti və incəsənəti Heydər Əliyevin Azərbaycançılıq ideologiyasının əsası kimi" elmi-nəzəri konfransın materialları, – Bakı: – 2013, – s. 214-218.

[7] Мустафаева, С.И. Исполнительский анализ «Детской сюиты» Васифа Аллахвердиева / С.И.Мустафаева. – Баку: Бизим китаб, – 2011. – 86 с.

[8] Raufqızı, A. Vasif Allahverdiyevin xor və simfonik orkestr üçün "Yüksək-yüksək təpələrə" türküsü // – Ankara: Kültür Evreni, – 2012. №13, – s. 56-61.

[9] Zamanova, A.X. Vasif Allahverdiyevin əsərlərinin düşündürücü cəhətləri // "Müasir dünyada mədəniyyətlərarası münasibətlər" XI Beynəlxalq Elmi simpoziumun materialları (The XI International Scientific Symposium "İntercultural relations in the modern world"), – Tbilisi: – 27 fevral, – 2021, – s. 206-209.

geniş yaradıcılığının müfəssəl şəkildə öyrənilməsi və təhlil edilməsi dissertasiya işinin aktuallığını təmin edir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini Azərbaycan musiqi mədəniyyəti kontekstində V.Allahverdiyevin yaradıcılığı təşkil edir. Predmeti isə bəstəkarın müxtəlif janrları əhatə edən əsərlərinin əsas cəhətləri, yaradıcılığında türkçülük ideyalarının təzahürü və fərdi dəst-xəttinin xüsusiyyətləridir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Azərbaycan musiqi mədəniyyəti kontekstində V.Allahverdiyev yaradıcılığının müxtəlif aspektlər araşdırılması tədqiqatın məqsədini təşkil edir. Tədqiqatın vəzifələri isə aşağıdakılardan ibarətdir:

– Vasif Allahverdiyevin əsərlərinin yaranma mərhələlərini izləməklə yaradıcılığını səciyyələndirmək;

– Bəstəkarın simfonik, vokal və xalq çalğı alətləri üçün yazdığı və indiyə qədər araşdırılmamış əsərlərini təhlil edərək, əsas xüsusiyyətlərini üzə çıxarmaq;

– Türkçülük məfkurəsini bəstəkarın yaradıcılığında müəyyən etmək və əsərlərin musiqi dilində türk xalq melodiyalarının təsirini işıqlandırmaq;

– Klassik janr və formalar çərçivəsində bəstəkarın milli köklərə əsaslanan yaradıcılığının fərdiliyini şərtləndirən cəhətləri nümayiş etdirmək;

– Simfonik əsərlərində orkestrləşmə üsullarının xüsusiyyətlərini və tembr müxtəlifliyini, polifonik yazı tərzini göstərmək;

– Ənənələr və varislik mövqeyindən çıxış edərək, bəstəkarın əsərlərində yenilikləri və milli dəyərlərə əsaslanmanı üzə çıxarmaq;

– Azərbaycan bəstəkarlıq məktəbinin nümayəndəsi kimi V.Allahverdiyev yaradıcılığının əhəmiyyətini müəyyən etmək.

**Tədqiqat metodları.** Dissertasiyada V.Allahverdiyev yaradıcılığının təhlili üçün sistemli, tarixi, nəzəri və müqayisəli təhlil metodlarından istifadə edilmişdir.

Dissertasiya işinin əhəmiyyətli hissəsini bəstəkarın yaradıcılıq xüsusiyyətlərinin və fərdi dəst-xəttinin müəyyənləşdirilməsi təşkil edir. Mövzu ilə bağlı problemlərin araşdırılması zamanı Azərbaycan musiqişünas alimləri ilə yanaşı, xarici ölkə musiqişünaslarının fikir və mülahizələri metodoloji baza kimi istifadə edilmişdir.

Dissertasiyanın mövzusu ilə əlaqədar olaraq Ü.Hacıbəyli[10],[11], Q.Qarayev[12],[13], F.Əmirov[14],[15], A.Məlikov[16] kimi dahi bəstəkarların üslub xüsusiyyətlərini müəyyənləşdirən müddəalara əsaslanılmış və varislik ənənələri davam etdirilmişdir.

Azərbaycan musiqişünaslarından E.A.Abasova [17], [18], S.C.Qasımova [19], A.Z.Tağızadə [20], R.A.Məmmədova [21], G.A.Abdullazadə [22], R.F.Zöhrabov [23], T.A.Məmmədov [24], [25], İ.M.Əfəndiyeva[26], Ü.İ.İmanova[27], F.Ş.Əliyeva[28],[29], F.X.Xalıqzadə[30],

---

[10] Hacıbəyli, Ü.Ə. Azərbaycan xalq musiqisinin əsasları / Ü.Ə.Hacıbəyli. – Bakı: Apostrof, – 2010. – 176 s.

[11] Hacıbəyli, Ü.Ə. Seçilmiş əsərləri // Ü.Ə.Hacıbəyli. – Bakı: Şərq-Qərb, – c. 2. – 2005. – 456 s.

[12] Qarayev, Q.Ə. Oçerklər / Q.Ə.Qarayev. – Bakı: Çinar-Çap, – 2003. – 280 s.

[13] Караев, К.А. Статьи. Письма. Воспоминания / сост: Л.В.Карагичева. – Москва: Советский композитор, – 1978. – 428 с.

[14] Əmirov, F.C. Musiqi aləmində / F.C.Əmirov. – Bakı: İşıq, – 1983. – 270 s.

[15] Əmirov, F.C. Musiqi səhifələri / F.C.Əmirov. – Bakı: İşıq, – 1978. – 141 s.

[16] Алекберова, Н.Ю. Ариф Меликов / Н.Ю.Алекберова. – Баку: Ишыг, – 1988. – 176 с.

[17] Абасова, Э.А. О новаторских приципах в творчестве Кара Караева / Э.А.Абасова. – Баку: Элм, – 2000. – 20 с.

[18] Абасова, Э.А. Узеир Гаджибеков - путь жизни и творчества / Э.А.Абасова. – Баку: Элм, – 1985. – 200 с.

[19] Qasımova, S.C., Abdullayeva, Z.K. Fikrət Əmirov / S.C.Qasımova, Z.K.Abdullayeva. – Bakı, – 2004. – 210 s.

[20] Тагизаде, А.З. Акшин Ализаде / А.З.Тагизаде. – Баку: Ишыг, – 1986, – 173 с.

[21] Məmmədova, R.A. Musiqi türkologiyasının əsasları – Bakı: Musiqi dünyası, – 2022. № 1 (90), – s. 22-27.

[22] Abdullazadə, G.A. Qədim və orta əsrlərin musiqi mədəniyyəti. Şərq və Qərb kontekstində / G.A.Abdullazadə. – Bakı: Şərq-Qərb, – 2009. – 272 s.

[23] Zöhrabov, R.F. Bəstəkarlarımızın portreti / R.F.Zöhrabov. – Bakı: Gənclik, – 1997. – 122 s.

[24] Məmmədov, T.A. Azərbaycan aşıq sənəti. Dərslik. / T.A.Məmmədov. – Bakı: Apostrof, – 2011. – 648 s.

[25] Məmmədov, T.A. Azərbaycan xalq professional musiqisi: aşıq sənəti / T.A.Məmmədov. – Bakı: Şur, – 2003. – 95 s.

[26] Эфендиева, И.М. Васиф Адигезалов / И.М. Эфендиева. – Баку: Нур, – 1999. – 323 с.

[27] Иманова, У.И. Классицизм XX века и музыка Кара Караева: / автореферат дис. доктора философии по искусствоведению. / – Ташкент, 1990. – 28 с.

Ş.H.Həsənova[31],[32], Z.A.Dadaşzadə-Axundova[33],[34], C.E.Mahmudova[35],[36] K.H.Dadaşzadə[37] və G.R.Mahmudovanın[38], [39] elmi əsərləri, rus musiqişünas alimləri B.V.Asafyev[40], [41], L.A.Mazel[42], [43],

---

[28] Əliyeva, F.Ş. Azərbaycan bəstəkarlarının yaradıcılığında üslub xüsusiyyətləri / F.Ş.Əliyeva. – Bakı: Elm və həyat, – 1996. – 118 s.
[29] Əliyeva, F.Ş. XX əsrin II yarısında Azərbaycan musiqisinin yeni inkişaf yolları / F.Ş.Əliyeva. – Bakı: Elm, – 2012. – 207 s.
[30] Xalıqzadə, F.X. Musiqi türkologiyası: nailiyyətlər, perspektivlər // "Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri" XV Beynəlxalq elmi-praktiki konfransın materialları, – Bakı: – 2016, – s. 29-42.
[31] Həsənova-Mahmudova, Ş.H. XX əsr Azərbaycan musiqisi: ənənə və müasirlik / Ş.H.Həsənova-Mahmudova. – Bakı: Apostrof, – 2011. – 306 s.
[32] Həsənova, Ş.H. Azərbaycan bəstəkarlıq məktəbinin ənənələri kontekstində xalq artisti Musa Mirzəyevin yaradıcılığı: / sənətşünaslıq üzrə elmlər doktoru dissertasiyası. / – Bakı, 2011. – 288 s.
[33] Dadaşzadə, Z.A. Azərbaycan simfoniyası (1960-1980-cı illər): janrın əsas inkişaf təmayyülərinə dair / Z.A.Dadaşzadə. – Bakı: Ziya, – 2012. – 239 s.
[34] Ахундова-Дадашзаде, З.А. Тембровые поиски в творчестве современных азербайджанских композиторов (к вопросу применения народного инструментария) // З.А.Ахундова-Дадашзаде. – Москва: Искусство, наука, практика, – 2018. № 2 (22), – s. 101-111.
[35] Mahmudova, C.E. Azərbaycan xalq və bəstəkar mahnılarının mətn xüsusiyyətləri / C.E.Mahmudova. – Bakı: ADPU-nun mətbəəsi, – 2014. – 112 s.
[36] Mahmudova, C.E. Mahnının qoşa qanadı – poeziya və musiqi / C.E.Mahmudova. – Bakı: Mars-Print, – 2013. – 244 s.
[37] Dadaşzadə, K.H. Musiqi qorqudşünaslığına dair bəzi məsələlər // – Bakı: Musiqi dünyası, – 1999. №1, – s. 39-41.
[38] Махмудова, Г.Р. Генезис и эволюция остинатности в азербайджанской музыке / Г.Р.Махмудова. – Баку: Нурлан, – 2006. – 434 с.
[39] Махмудова, Г.Р. Остинатность в музыке устной традиции Азербайджана / Г.Р.Махмудова. – Баку: Адильоглу, – 2001. – 151 с.
[40] Асафьев, Б.В. Музыкальная форма как процесс / Б.В.Асафьев. – Ленинград: Музыка, – 1971. – 376 с.
[41] Асафьев, Б.В. О симфонической и камерной музыке / Б.В.Асафьев. – Ленинград: Музыка, – 1981. – 216 с.
[42] Mazel, L.A. Musiqi əsərlərinin quruluşu / L.A.Mazel. – Bakı: Maarif, – 1988. – s. 462.
[43] Мазель, Л.А. Строение музыкальных произведений / Л.А.Мазель. – Москва: Л.А.Мазель. Музгиз, – 1979. – 536 с.

İ.V.Sposobin[44], M.Q.Aranovski[45] və V.A.Tsukkermanın[46] müxtəlif tədqiqatları dissertasiyamızın metodoloji əsasını təşkil edir.

**Müdafiəyə çıxarılan əsas müddəalar** tədqiqatın istiqamətini təşkil edir və aşağıdakılardan ibarətdir:

– V.Allahverdiyevin yaradıcılığında ənənə və varislik prinsiplərinin əlaqələndirilməsi;

– Türkçülük məfkurəsi, milli dəyərlərə əsaslanan ideologiya və Vətən mövzusunun bəstəkarın yaradıcılığının ideya məzmununu müəyyənləşdirməsi;

– Proqramlı məzmun, mahnıvarilik və lirik-dramatik obrazlar aləminin V.Allahverdiyevi romantizm təmayülünün nümayəndəsi kimi səciyyələndirməsi;

– Əsərlərinin kompozisiya quruluşunun klassik formalara, əsasən ikihissəli, üçhissəli və kuplet-nəqərat formasına əsaslanması;

– Yaradıcılığına xas olan cəhət kimi simfonik əsərlərinin musiqisində milli məqamlara əsaslanması, türk xalq musiqisinin melodiya və elementlərinin nəzərə çarpması;

– Bəstəkar klassik major-minor ladlarını milli məqamlarla qovuşduraraq, əsərlərinin fərdi musiqi dilini müəyyənləşdirməsi;

– Milli çalğı alətlərini simfonik orkestrə daxil etməsi və onların tembr xüsusiyyətlərini uyğunlaşdırması əsasında türk xalq melodiyalarının koloritini yaradan səslənişə nail olması;

– Simfonik əsərlərində polifonik inkişaf üsullarının, imitasiyalı gedişlərin əsas yer tutması və bəstəkarın təfəkkür tərzinin zənginliyinin nümayiş etdirilməsi;

– Vokal əsərlərində poetik mətn ilə melodik xəttin üzvi şəkildə uyğunlaşdırılması;

– Yaradıcılığında aşıq musiqisi üçün səciyyəvi olan kvarta-kvinta münasibətlərinin və saz alətinin ifa xüsusiyyətlərinin canlandırılmasına rast gəlinməsi;

---

[44] Способин, И.В. Музыкальная форма / И.В.Способин. – Москва: Музыка, – 1984. – 400 с.

[45] Арановский, М.Г. Симфонические искания (Исслед. очерки) / М.Г.Арановский. – Ленинград: Советский композитор, – 1979. – 287 с.

[46] Цуккерман, В.А. Музыкальные жанры и основы музыкальных форм / В.А.Цуккерман. – Москва: Музыка, – 1964. – 296 с.

– Bəstəkarın əsərlərində melodik və harmonik dilin uyğunluğunun müşahidə olunması və polifonik fakturanın ifadəli səslənməyə xidmət edərək bəstəkarın fərdi dəst-xəttini müəyyənləşdirməsi.

**Tədqiqatın elmi yeniliyi.**

– Dissertasiyada əsası Ü.Hacıbəyli tərəfindən qoyulmuş Azərbaycan bəstəkarlıq məktəbinin ənənələri kontekstində V.Allahverdiyevin yaradıcılığı kompleks şəkildə ilk dəfə olaraq araşdırılmış və müxtəlif janrları əhatə edən əsərlərinin təhlili nəticəsində fərdi dəst-xəttinin xüsusiyyətləri müəyyən edilmişdir.

– V.Allahverdiyevin "Azərbaycan odası", "Simli orkestr üçün musiqi", "Simfonik rəqs" və "Sevgi valsı" kimi simfonik əsərləri, "O yollar", "Gözləyəcəyəm səni", "Bəlkə görüşdük", "Hara gedirsən", "Azərbaycanım" mahnıları, "Pəncərəm üşüyür" romansı, "Sənsizlik" elegiyası, "Azərbaycan torpağıyam" odası ilk dəfə təhlilə cəlb edilmişdir.

– Bununla yanaşı, müəyyən əsərləri janrın səciyyəvi xüsusiyyətləri baxımından izlənilmişdir. Bəstəkarın "Atatürk" simfoniyası, "Ömür yolu" simfonik poeması ətraflı şəkildə tədqiq edilmişdir. "Cəngi sədası" isə bəstəkarın özü tərəfindən təhlil edildiyi üçün, tədqiqatda bu əsərə janr və quruluş baxımından nəzər yetirilmişdir. Həmçinin "Qarabağ balladası", "Yüksək-yüksək təpələrə" türküsünün xor və orkestr üçün işləməsi, fortepiano əsərləri ənənələr kontekstində araşdırılaraq səciyyələndirilmişdir.

– V.Allahverdiyevin yaradıcılığında bütün yeniliklərin ənənələr çərçivəsində və milli köklərə əsaslanmış şəkildə həyata keçirilməsi vurğulanmışdır. Onun alətlərin tembr imkanlarını dərindən duymasına aydınlıq gətirilmişdir. V.Allahverdiyevin əsərlərində milli xalq çalğı alətlərini istifadə etməsi və ya simfonik orkestrdə onların səsləniş tərzini yaratması, eləcə də türk xalq musiqisinin intonasiyaları səsləndirmək üçün müxtəlif alətləri birləşdirərək müəyyən tembr çalarları əldə etməsi ilk dəfə olaraq tədqiqat prosesi zamanı aşkar olunmuşdur. Simfonik orkestrin imkanlarına və alətlərin tembr xüsusiyyətlərinə bələd olması bəstəkara xas olan səciyyəvi cəhət kimi üzə çıxarılmışdır.

– Tədqiqat prosesində bəstəkarın şəxsi arxiv materiallarına əsaslanaraq, müəyyən əsərləri üzə çıxarılmış və təhlilə cəlb edilmişdir.

– İlk dəfə olaraq V.Allahverdiyevin elmi-metodiki fəaliyyəti də araşdırılmış və bəstəkarın elmi-pedaqoji yanaşmaları müəyyən edilmişdir. Bəstəkarın yaradıcılığının müasir dövrdə milli musiqi mədəniyyətinin inkişafında rolu və əhəmiyyəti işıqlandırılmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti** ondan ibarətdir ki, dissertasiya işində əldə edilmiş nəticə və müddəalar V.Allahverdiyevin yaradıcılığı ilə bağlı elmi işlərdə, tədqiqat və mühazirələrdə istifadə oluna bilər. Bəstəkarın yaradıcılığının tədqiqi milli musiqişünaslığı tarixi və nəzəri cəhətdən zənginləşdirir. Bu tədqiqat Azərbaycan musiqi tarixinin və nəzəriyyəsinin tədqiqatçıları üçün də əhəmiyyətlidir. Dissertasiya Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası, Azərbaycan Milli Konservatoriyası, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində “Azərbaycan musiqisinin tarixi”, “Azərbaycan musiqi ədəbiyyatı”, “Azərbaycan xalq musiqisinin əsasları”, “Musiqi forması” və digər fənlərin tədrisində istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi.** Tədqiqat işinin əsas müddəaları və nəticələri müəllifin respublika və beynəlxalq əhəmiyyətli elmi konfranslardakı çıxışlarında, beynəlxalq xülasələndirmə və indeksləşmə sistemlərinə daxil olan dövri elmi nəşrlərdə dərc olunmuş məqalə və tezislərdə öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının “Musiqi tarixi” kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya giriş, iki fəsil, beş paraqraf, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısı və əlavələrdən ibarətdir. Dissertasiyanın struktur bölmələrinin həcminə gəlincə, giriş 10 səhifə (15 769 işarə), I fəsil 79 səhifə (143 007 işarə), II fəsil 39 səhifə (63 572 işarə), nəticə isə 7 səhifə (11 441 işarə) ibarətdir. Tədqiqat işinin ümumi həcmi istifadə edilmiş ədəbiyyat siyahısı və əlavələr istisna olunmaqla 135 səhifə və 233 789 işarədən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsi əsaslandırılır, tədqiqatın obyekti, predmeti, məqsəd və vəzifələri, metodları, müdafiəyə çıxarılan əsas müddəaları, elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, aprobasiyası və tətbiqi, quruluşu haqqında məlumat verilir.

Dissertasiyanin **I fəsli "Vasif Allahverdiyevin simfonik yaradıcılığının xüsusiyyətləri"** adlanir və üç paraqrafdan ibarətdir. **1.1. "Müasir dövr Azərbaycan bəstəkarlıq məktəbinin nümayəndəsi Vasif Allahverdiyevin yaradıcılıq portreti"** adlanir. Bu paraqrafda milli bəstəkarlıq məktəbimizin orta nəslini təmsil edən tanınmış nümayəndəsi, Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, Xalq artisti, professor, Prezident mükafatçısı Vasif Allahverdiyevin yaradıcılığının icmalı verilmişdir. V.Allahverdiyev yaradıcılığa ötən əsrin 90-cı illərində qədəm qoymuşdur. Onun janr baxımından zəngin və çoxşaxəli yaradıcılığında keçən türkçülük məfkurəsi əsas yer tutur. Bəstəkar ilk iri həcmli əsərlərini türk dünyasının görkəmli xadimlərinə ithaf etmişdir: Mustafa Kamal Atatürkə həsr olunan "Atatürk" simfoniyası və Heydər Əliyevi tərənnüm edən "Ömür yolu" simfonik poeması. Ümumiyyətlə, V.Allahverdiyev müasir düşüncə tərzinə malik bəstəkar kimi mühitdə baş verən hadisələrə, dövrün gerçək reallıqlarına qarşı münasibətini ifadə etməyə qadirdir. Bəstəkarın yaradıcılığında türkçülük Vətən anlayışı ilə eyni anlamda verilir. Hətta əsərlərin proqramlı adlarında belə türkçülük bağlılığını izləmək mümkündür. "Atatürk", "Ömür yolu", "Azərbaycan torpağıyam", "Cəngi sədası", "Vətən torpağı" kimi əsərlərində türkçülük ideyalarından doğan düşüncələr, məzmun və proqramlılıq nəzərə çarpır. V.Allahverdiyev öz yaradıcılığında musiqi folkloruna qoruyucu mövqedən yanaşır və burada bəstəkarın öz rakursu mövcuddur. "Azərbaycanım" mahnısı, "Cəngi sədası", "Azərbaycan torpağıyam" odası, "Ömür yolu" simfonik poeması və digər əsərlərində bu xüsusiyyətlər müşahidə olunur.

Bəstəkarın yaradıcılığına simfonik musiqi janrları, xalq çalğı alətləri üçün yazılmış müxtəlif tərkibli əsərlər, kamera, fortepiano və

xor əsərləri, romans və mahnılar, eləcə də digər janr nümunələri daxildir. Onun əsərlərində iki əsas xəttin qarşılaşdırılmasını görmək olar: lirik-məhəbbət və qəhrəmani-vətənpərvərlik mövzusu.

"Simfonik rəqs", "Sevgi valsı" kimi proqramlı simfonik əsərlərində, səs və kamera orkestri üçün "Sənsizlik elegiyası"nda, mahnı və romanslarında, ümumiyyətlə, yaradıcılığını əhatə edən bir çox əsərlərində lirik mövzuya rast gəlinir.

Qəhrəmani obraz aləmini əks etdirən əsərlərə xalq çalğı alətləri üçün "Cəngi sədası", dördsəsli qarışıq xor və xalq çalğı orkestri üçün "Azərbaycan torpağıyam" odası, səs və kamera orkestri üçün "Azərbaycanım", solo tar üçün "Qarabağ balladası" və digər nümunələri aid etmək mümkündür.

Kamera musiqisi sahəsində müəllimi İ.Hacıbəyovun ənənələrini davam etdirən V.Allahverdiyev üçhissəli simli kvarteti, triangolo, nağara və ağac nəfəs alətləri kvarteti üçün ikihissəli "Muğamsayağı" əsəri (dahi bəstəkar Üzeyir Hacıbəyliyə həsr olunub), orkestr və zərb alətləri üçün "Türkü", eləcə də kamera-instrumental əsərlər – violin və fortepiano üçün sonata, pyeslər və digər əsərlərin müəllifidir.

V.Allahverdiyevin mahnıları əsasən lirik məzmun daşıyır və əksəriyyəti şairə Maya Heydərqızının sözlərinə bəstələnmişdir. Maraqlıdır ki, bəstəkarın bir çox mahnıları ("O yollar", "Hara gedirsən", "Gözləyəcəyəm səni") səs və kamera orkestrinin müşayiəti üçün nəzərdə tutulmuşdur.

Xor musiqisi nümunələri sırasında V.Allahverdiyevin solist, dördsəsli qarışıq xor və simfonik orkestr üçün "Vətən torpağı" odası (Maya Heydərqızının sözlərinə) vətənpərvərlik ruhunda yazılmış bir əsər kimi xüsusi əhəmiyyət kəsb edir. Bəstəkarın xor və simfonik orkestr üçün "Yüksək-yüksək təpələrə" əsəri eyniadlı türk xalq mahnısı əsasında yazılmışdır.

V.Allahverdiyevin fortepiano yaradıcılığına bir sıra prelüdlər, pyeslər, silsilə, sonatina, "Gənclik süitası" və "Gül açdı" xalq mövzusu əsasında variasiyalar aiddir.

Digər bəstəkarların əsərlərinin, xalq mahnılarının müxtəlif tərkibli orkestrlər üçün köçürmə və işləmələri alətlərin tembr müxtəlifliyinə mükəmməl bələd olan V.Allahverdiyevin

yaradıcılığının maraqlı sahələrindən biridir. Gözəl tarzən olan bəstəkar bu sevimli alətinə də biganə qalmamış, tar və kamera orkestri üçün maraqlı işləmələr yaratmışdır.

Polifonik təfəkkürə malik olması onun bir çox janr sahələrini əhatə edən əsərlərində nəzərə çarpır. Ümumiyyətlə, simfonik orkestrin alətləri arasında münasibət, melodiyanın kontrapunkt şəklində verilməsi ("Simli orkestr üçün musiqi"), sekvensiyalardan çox istifadə olunması, interval münasibətlərinin sual-cavab intonasiyaları üzərində qurulması və eləcə də polifonik inkişaf üsulları bəstəkarın yaradıcılığını əhatə edən əsərlərinin inkişaf qanunauyğunluqlarını əhatə edir.

V.Allahverdiyev Azərbaycan musiqi mədəniyyətinin banisi Üzeyir Hacıbəylinin yaratdığı yolu uğurla yaradıcılığında davam etdirən bəstəkarlardan biri kimi Şərq və Qərb ənənələrinin vəhdətinə nail olaraq, öz dəst-xəttini qoruyub saxlaya bilmişdir. Onun yaradıcılığını araşdırıb, tədqiq etdikcə burada romantizm, neofolklorizm cərəyanlarının cizgilərini sezə bilərik. Bəstəkarı səciyyələndirən əsas cəhət klassik formalara dayanaraq yaradıcılığında türkçülük ideologiyası, Şərq obrazlarının istifadəsi və xəlqilik prinsipini fərdi yanaşma ilə təqdim etməsidir.

Pedaqoji fəaliyyətlə məşğul olan bəstəkar Azərbaycan Milli Konservatoriyasının professorudur və gənc musiqiçilərin yetişməsində yaxından iştirak edir. O, öz dəyərli məsləhətlərini müəllifi olduğu bir sıra əsərləri ilə bağlı metodik tövsiyə və dərs vəsaitlərində işıqlandırmışdır. "Cəngi sədası", "Qarabağ balladası" kimi dərs vəsaitlərində, eləcə də elmi-nəzəri məqalələrində musiqişünas yanaşması nümayiş etdirərək, bəstəkarlıq təfəkküründən doğan fikirlərini açıqlamışdır. Bir sənətkar kimi yaradıcılığının yetkinlik çağını yaşayan V.Allahverdiyev yüksək ideyaları, aktual mövzuları tərənnüm edərək çağdaş dövrümüzdə Azərbaycan professional musiqi mədəniyyətini daha da irəli aparan yeni əsərlər yaradır.

**1.2. "İri həcmli simfonik əsərlərində türkçülüyün ifadəsi"** adlanan paraqrafda V.Allahverdiyevin "Atatürk" simfoniyası və "Ömür yolu" simfonik poemasının təhlili verilmişdir. "Atatürk" musiqi tarixində Mustafa Kamal Atatürkə ithaf olunmuş ilk simfoniyadır. Üç hissədən ibarət əsər simfonik orkestrin üçlü tərkibi

üçün yazılıb. Bəstəkar simfoniyada Atatürk obrazını iki tərəfdən işıqlandırır. Bunlardan biri onun qətiyyətli, mübariz obrazı, digəri isə ölkəsinin gələcəyi ilə bağlı fikir və düşüncələridir.

Bəstəkar Atatürk obrazının açılmasında simfonik orkestri təşkil edən alətlərin imkanlarından məharətlə istifadə edir. Maraqlı bir xüsusiyyət simfoniyada zərb alətləri qrupuna daha çox üstünlüyün verilməsidir. Bunu V.Allahverdiyevin türkçülük ənənələrinə bağlılığı ilə əlaqələndirmək mümkündür. Məlumdur ki, qədim türk xalqlarının musiqisində zərb alətləri üstünlük təşkil edir və bu alətlər əzəmətin, qüdrətin, qəhrəmanlıq ruhunun göstəricisi kimi istifadə olunmuşdur. Bu baxımdan V.Allahverdiyev də Atatürk obrazının qətiyyətini, türk ruhuna bağlılığını ifadə etmək üçün simfoniyada zərb alətlərinin rolunu daha qabarıq göstərmişdir.

V.Allahverdiyev "Ömür yolu" simfonik poemasında türk dünyasının daha bir böyük şəxsiyyəti olan Heydər Əliyev obrazına müraciət edir. Siyasi-ictimai mövzulu "Ömür yolu" simfonik poeması Ulu Öndərə həsr olunmuş ilk simfonik əsər kimi Azərbaycan musiqisi tarixinə daxil olmuşdur. "Ömür yolu" simfonik poemasının obraz aləmi özündə bir neçə istiqaməti ehtiva edir: burada Ulu Öndər Heydər Əliyevin şəxsiyyəti və böyük humanistliyi, 1990-cı illərin çətin ab-havası və onun xilaskar sərkərdə kimi Vətənin dar günündə çətinliklərə sinə gərməsi, nailiyyətləri, qələbələri öz əksini tapmışdır. Bununla yanaşı, əsərdə digər bir inkişaf xətti də özünü göstərir ki, bu da Heydər Əliyevə qarşı dayanan mənfi qüvvələrdir. Bu iki istiqamətin qarşılaşması əsərin dramaturji inkişaf xəttini təşkil edir.

"Ömür yolu" proqramlı simfonik əsərdir. Əsərdə epik və dramatik simfonizm ənənələri birləşir. Eyni zamanda təsvirilik və teatrallıq özünü büruzə verir. Elə bu səbəbdən poemanın musiqisi əsasında film çəkilmişdir. Titul vərəqində görkəmli şair, dramaturq Hüseyn Cavidin "Peyğəmbər" dramından epiqraf verilmişdir.

Böyük simfonik orkestr üçün yazılan simfonik poema müqəddimə-girişlə başlayır. Müqəddimədə zəhmli, inadkar, təsdiq və nida intonasiyalarını əks etdirən üç akkordun "sforzando" səslənməsini Ulu Öndərin leytmotivi də adlandıra bilərik. Reprizasız sadə ikihissəli formanı özündə ehtiva edən əsas mövzuda əsərə xas

olan epik genişlik və nəqletmə dramatizmlə üzvi surətdə qovuşur. Lirik köməkçi partiya əsas partiya ilə təzadlı olub, özündə mənəvi başlanğıcı əks etdirir. Simli alətlərlə nəfəs alətlərinin ifadəli mövzu üzərində qurulan dialoqu bir qədər muğam improvizasiyasını xatırladır. Poemadakı mövzular sanki bir-birindən yaranır və monotematizm motivlərinin işlənilməsi əsas yer tutur. Xüsusilə Heydər Əliyev obrazını səciyyələndirən mövzunun bütün əsər boyu keçməsi simfonik poema janrının xüsusiyyətləri ilə bağlıdır. Simfonik poemanın işlənmə bölməsi üç böyük inkişaf dalğasının növbələşməsi əsasında qurulub və burada tanınmış opera və estrada müğənnisi, SSRİ Xalq artisti Müslüm Maqomayevin bəstələdiyi "Azərbaycan" mahnısı sitat kimi istifadə edilmişdir. Bəstəkar simfonik poemada güzgülü reprizadan istifadə edir. O, əvvəldə olan mövzulara, o cümlədən ekspozisiya bölməsində olan mövzulara (xüsusilə giriş mövzusuna) yeni obraz qiyafəsi "geyindirərək" reprizada onları variantlı şəkildə transformasiya edir. Simfonik poemada qədim türk yallısının melodiyasından istifadə olunması xalq həmrəyliyinin ifadəsi olmaqla yanaşı, bəstəkarın neofolklorizmə cəhd etməsi kimi dəyərləndirilə bilər. Simfonik poema V.Allahverdiyevin yaradıcılığının formalaşdığı bir dövrdə yazıldığına görə, onun bir bəstəkar kimi təkamülünün inkişafını və dəst-xəttinin xüsusiyyətlərini müəyyənləşdirir.

**1.3. "Kiçik həcmli simfonik əsərlərinin janr-üslub xüsusiyyətləri"** adlanan paraqrafda V.Allahverdiyevin "Simli orkestr üçün musiqi", "Sevgi valsı", "Simfonik rəqs" kimi kiçik həcmli simfonik əsərləri araşdırılmışdır.

"Simli orkestr üçün musiqi" kamera orkestri üçün yazılsa da, özündə sonata-simfonik silsilənin xüsusiyyətlərini daşıyır və sonata formasını ehtiva edir. Forma tamlığı və dramaturji xəttin inkişafı aspektindən yanaşdıqda əsərdə simfoniya janrına yaxınlıq görünür. Eyni zamanda əsər kamera musiqisinin bəzi cəhətlərini özündə cəmləşdirir və bu, musiqi fikrinin yığcamlığında müşahidə olunur. V.Allahverdiyev "Simli orkestr üçün musiqi" əsərində Avropa musiqisindən A.Şönberq və Azərbaycan bəstəkarlıq məktəbinin görkəmli nümayəndələri Q.Qarayev, F.Əmirov, A.Əlizadə ənənələrinin davamçısı kimi çıxış edərək simfonik musiqini yeni

təfsirdə təqdim etmişdir. Bu zaman bəstəkarın milli zəminə sıx bağlılığı və əsərin musiqi dilinin milli mənsubluğu melodiya, harmoniya, müşayiət fakturasında, məqam-intonasiya xüsusiyyətlərində özünü büruzə verir. Bununla da, bəstəkar Şərq və Qərb tendensiyalarını üzvü surətdə birləşdirməyə nail olur.

"Sevgi valsı" üçlü tərkibli simfonik orkestr üçün yazılmışdır. Bəstəkar əsəri həyat yoldaşı Reyhan xanıma həsr edib. Əsərin lirik-poetik əhvali-ruhiyyəyə malik olması onun ideya məzmunu ilə bağlıdır və incə obrazlılıq əsas aparıcı xətti təşkil edir.

V.Allahverdiyevin musiqi dilinin dolğunluğu və mükəmməl orkestrləşmə üsulları ilə diqqəti cəlb edən daha bir əsəri "Simfonik rəqs"dir. Bu əsərində bəstəkar "Yüksək-yüksək təpələrə" türk xalq melodiyasından istifadə etmişdir. Həmçinin "Simfonik rəqs"in mövzusu intonasiya baxımından "Evləri köndələn yar" (bu mahnı "Güloğlan" adı ilə də tanınır) Azərbaycan xalq mahnısı ilə də yaxındır. Əsərin 9/8 ölçüdə yazılması qədim türk musiqisi ilə əlaqədardır. "Simfonik rəqs"də zərb alətləri ostinat ritmik formulu əsər boyu saxlayırlar.

Ümumiyyətlə, milli qanunauyğunluqlara bağlılıq bəstəkarın kiçik həcmli simfonik əsərlərini birləşdirən əsas xüsusiyyətdir.

Dissertasiyanın **II fəsli "Vasif Allahverdiyevin müxtəlif janr yönümlü əsərləri"** adlanır və iki paraqrafdan ibarətdir. **2.1. "Vokal əsərlərində lirik obrazlar aləminin təcəssümü"** adlanan paraqrafda bəstəkarın mahnı və romanslarından bəhs edilir. Onun digər janrlarda yazdığı əsərlərin böyük qismi qəhrəmani-vətənpərvərlik ruhunda olsa da, mahnılarında incə lirika, insanın daxili aləmi üstünlük təşkil edir. Romantik bəstəkar kimi o, özünü vokal əsərlərində təsdiqləmişdir.

"Gözləyəcəyəm səni" lirik mahnı janrındadır və maraqlı süjet xəttinə malikdir. Əsər fleyta, qoboy, klarnet, simlilərdən ibarət kamera orkestri və səs üçün yazılmışdır. "C" mayəli bayatı-şiraz məqamına əsaslanan mahnı reprizalı, sadə ikihissəli formanı özündə ehtiva edən quruluşa malikdir.

"Bəlkə görüşdük" mahnısı səs və kamera orkestri üçün yazılıb və kuplet-nəqərat formasındadır. Əsərin orkestr partiyası sanki bəstəkarın kiçik həcmli simfonik əsərlərini xatırladır.

“Hara gedirsən” mahnısı emosional ruhuna görə, dinləyicidə sanki hansısa operadan bir qəhrəmanın lirik səhnəsi təəssüratını yaradır.

“Azərbaycanım” mahnısı kütləvi mahnı janrında yazılıb və vətənpərvərlik hisslərini aşılayır. Bəstəkar vokal yaradıcılığında ilk dəfə olaraq, ənənəvi orkestr tərkibinə milli xalq çalğı aləti olan zurnanı daxil edir. Mahnının zəngin orkestr boyası, himnvariliyi onun janr xüsusiyyətlərini müəyyənləşdirir. Zurna alətinin səslənişi cəngi havalarını xatırladır və bunun nəticəsində himn-marş yaranır.

V.Allahverdiyevin “Sənsizlik” elegiyası, “Pəncərəm üşüyür”, “Qəmli hekayə” kimi romanslarında milli romans janrının xüsusiyyətlərinin davam etdirilməsi nəzərə çarpır. Bəstəkar romanslarında kantilenadan, mahnıvarilikdən yararlanaraq poetik obrazları canlandırır.

“Pəncərəm üşüyür” metso-soprano və fortepiano üçün yazılmış kiçik romans olub, monoloq xüsusiyyətləri daşıyır. Romans qeyri-kvadrat quruluşlu period formasında yazılıb.

V.Allahverdiyevin digər maraqlı vokal nümunəsi olan “Qəmli hekayə” səs və fortepiano üçün yazılıb. Əsər sadə üçhissəli formanı özündə ehtiva edir.

“Sənsizlik” elegiyası səs və kamera orkestri üçün yazılıb və Ümummilli lider, Ulu Öndər Heydər Əliyevə həsr olunub. Elegiyada iki obrazın qarşılıqlı inkişafı verilir: Heydər Əliyev və Azərbaycan. Əsərin formasını sadə və mürəkkəb üçhissəli arasında aralıq forma kimi dəyərləndirə bilərik.

Bəstəkar mahnıların bir çoxunda sərbəst muğam improvizələrini xatırladan melodik parçaları fleyta alətinin partiyasına daxil etməklə milli xalq boyalarını yaradır, bununla da Şərq və Qərbin əlaqəsini mükəmməl təqdim etmiş olur.

**2.2. “Xalq çalğı alətləri orkestri üçün əsərlərində vətənpərvərlik mövzusunun tərənnümü”** adlanır. Bu paraqrafda “Qarabağ balladası”, “Azərbaycan torpağıyam” və “Cəngi sədası” əsərləri araşdırılmışdır.

“Qarabağ balladası” əsərində milli koloritin parlaqlığı, tez-tez dəyişən əhval-ruhiyyə, epik, lirik və dramatik cəhətlərin növbələşməsi, balladaya xas hekayə və nəqletmə xüsusiyyətləri müşahidə olunur.

Əsərdə nəinki muğam janrının, həmçinin aşıq musiqisi və əsərin sonunda kodada mərsiyə janrının xüsusiyyətləri tətbiq edilmişdir. V.Allahverdiyev xalq çalğı alətləri orkestri üçün "Cəngi sədası", dördsəsli qarışıq xor və xalq çalğı alətləri orkestri üçün "Azərbaycan torpağıyam", səs və xalq çalğı orkestri üçün "Azərbaycanım" kimi əsərlərin müəllifidir. Bu nümunələrin hər birində bəstəkar milli ənənələrlə Avropa musiqi sənətinin mükəmməl sintezinə nail olmuşdur. Onun digər janr sahələrində yaratdığı əsərlərində olduğu kimi, xalq çalğı alətləri üçün yazılmış əsərlərində də Azərbaycan, Vətən, Qarabağ mövzusu əsas ideya istiqamətini təşkil edir.

Bəstəkarın xor əsərlərinə daxil olan "Azərbaycan torpağıyam" odası dördsəsli qarışıq xor və xalq çalğı alətləri orkestri üçün yazılmışdır. V.Allahverdiyev "Azərbaycan torpağıyam" odasında türkçülük ənənələrinə bağlılığını bir daha nümayiş etdirmişdir. Belə ki, odanın melodik əsasını "Malatya bulunmaz eşin" adlı Malatya türküsü təşkil edir[47]. Əsər özündə ənənəvi kuplet-nəqərat formasını ehtiva edir. "Azərbaycan torpağıyam" odasında bəstəkarın xorun imkanlarından yararlanaraq polifonik işləmələrin uğurlu təqdimatını görə bilərik. Orkestr partiyası isə xorla sanki "deyişir". Bəstəkar bəzən orkestr və xor partiyasında melodiyaları kanonik imitasiya şəklində təqdim edir.

"Cəngi sədası" xalq çalğı alətləri orkestri üçün yazılmış kamera-instrumental əsəridir və rondo formasını özündə ehtiva edir. Bəstəkar əsərdə ənənəvi cəngi rəqsinə xas vurğulu punktir ritminə sinkopalı quruluşun davamlı istifadəsi ilə nüfuz edərək, əsərin qəhrəmani, döyüşkən ruhunu ön plana çəkir.

V.Allahverdiyev xalq çalğı alətləri üçün yazılmış əsərlərinin özünəməxsus cəhəti klassik üslubla milli xalq koloritinin uğurlu tandemini təqdim etməsidir. Burada klassik orkestr və ansambl tərkiblərinə milli alətlərin və ya əksinə xalq çalğı alətləri orkestrinə Qərb ənənəsinin müdaxiləsini aydın görürük.

Dissertasiyanın **Nəticə** bölməsində tədqiqata yekun vurulur. V.Allahverdiyevin əsərlərinin təhlili onun bir bəstəkar kimi fərdi dəst-xəttinin müəyyənləşməsinə imkan vermiş və aşağıdakı xüsusiyyətlər aşkar edilmişdir:

---

[47] "Malatya bulunmaz eşin" / [Elektron resurs] / URL: https://www.youtube.com/watch?v=IIA8xyBHSDA

1. Azərbaycan musiqi mədəniyyəti kontekstində V.Allahverdiyevin yaradıcılığı musiqi təfəkkürünün orijinallığı, xalq musiqi ənənələrini dərindən bilməyi və türkçülük prinsiplərinə bağlı olması ilə seçilir. Bəstəkarın əsərlərində olan xəlqilik, mövzu və məna dərinliyi, forma bitkinliyi onun fərdi dəst-xəttinin səciyyəvi xüsusiyyətlərindəndir. V.Allahverdiyevin yaradıcılığı milli köklərə bağlı olmaqla yanaşı, dövrün hadisələrini tam dolğunluğu ilə əks etdirir və bəstəkarın geniş dünyagörüşünün ifadəsidir.

2. Azərbaycan musiqi mədəniyyəti kontekstində bəstəkarın yaradıcılığında ənənə və varisliyin qovuşması üzə çıxarılaraq, mühüm bir amil kimi vurğulanmışdır. Bu zaman V.Allahverdiyevin varislik ənənəsindən çıxış edərək əxz etdiyi xüsusiyyətləri müasir dövr musiqisinin nailiyyətləri ilə üzvi surətdə əlaqələndirməsi bəstəkarın səciyyəvi keyfiyyəti olaraq nəzərə çatdırılmışdır.

3. 1990-cı illərdən başlayaraq, milli dəyərlərə qayıdış çərçivəsində yeni ideologiyanın formalaşması və bunun V.Allahverdiyev yaradıcılığına təsiri əsas amil kimi vurğulandı. Bu cəhət bəstəkarın yaradıcılığında aparıcı cəhət kimi müəyyənləşdirildi.

4. Türkçülük məfkurəsi və ideologiyası onun əsərlərində qırmızı xətt kimi keçir. O, buna mövzu və musiqi dili səviyyəsində daha geniş şəkildə yanaşmışdır. Bu əlaqəni əsərlərin əsas ideyası ilə yanaşı, melodik dili, metro-ritmik xüsusiyyətlər və digər musiqi ifadə vasitələrində müşahidə etmək mümkündür. "Ömür yolu" simfonik poemasında qədim türk yallısının intonasiyalarından istifadə edilmişdir. "Cəngi sədası"nda ritmik növbələşmə türk xalq musiqisinə xas xüsusiyyətdir. Bu kimi xüsusiyyətlər "Qarabağ balladası"nda, "Azərbaycan torpağıyam" odasında da müşahidə olunur.

5. Bəstəkarın tədqiqata cəlb edilmiş əsərlərinin təhlilinə əsasən demək mümkündür ki, müxtəlif tembrli alətlərin sintezində, milli qaynaqlara əsaslanmada, metro-ritmik xüsusiyyətlər və intonasiya bağlılığında türkçülük məfkurəsi, türk xalq musiqisinin elementləri, milli dəyərlər və müasir yanaşmalar arasında üzvi əlaqə vardır.

6. V.Allahverdiyevin əsərlərində məzmun müxtəlifliyi Vətən, doğma Azərbaycan, türk dünyası və onun görkəmli şəxsiyyətlərinin ifadəsi səviyyəsində özünü göstərir. Xarakter etibarilə lirik bəstəkar

olan V.Allahverdiyevin yaradıcılığında bu mövzular romantizm cərəyanının sərhədləri çərçivəsində təqdim olunmuşdur.

7. V.Allahverdiyevin əsərləri mövzu müxtəlifliyinə malikdir. Bəstəkar "Ömür yolu" simfonik poemasında türkçülük ideyalarına bağlı olan görkəmli yazıçı-dramaturq Hüseyn Cavid yaradıcılığından epiqraf versə də, "Azərbaycan torpağıyam" odasında Zəlimxan Yaqubun poeziyasına əsaslanmışdır. Vətən və lirik mövzulu mahnılarında Maya Heydərqızının şeirlərinə müraciət edir.

8. Romantizm cərəyanının təsiri V.Allahverdiyevin yaradıcılığına daxil olan bir çox janr nümunələrində, o cümlədən təhlilə cəlb olunan əsərlərində nəzərə çarpır. Əsərlərində proqramlı məzmun, mahnıvariliyin üstün olması, lirik-dramatik obrazların dramaturji inkişaf xəttində əsas yer tutması V.Allahverdiyevi müasir dövr Azərbaycan musiqisində romantizm təmayülünün nümayəndəsi kimi səciyyələndirir. Bəstəkarın əsərlərində romantizmə xas olan proqramlılıq ümumiləşmiş şəkildə özünü büruzə verir. Bu baxımdan V.Allahverdiyev simfonik yaradıcılığı F.Listin ümumiləşdirilmiş proqramlılıq ənənələrinə əsaslanır. Simfonik poema janrına ("Ömür yolu") müraciət etməsi, birhissəli əsərlərə üstünlük verməsi ("Simfonik rəqs", "Sevgi valsı"), simfoniya janrında üçhissəli quruluşa əsaslanması ("Atatürk") bilavasitə romantizm cərəyanının təsiri kimi şərh oluna bilər.

9. Folklor elementləri və milli musiqinin intonasiya xüsusiyyətləri V.Allahverdiyevin yaradıcılığında mühüm yer tutur. Milliliyin göstəricisi olan bu cəhəti bəstəkarın türkçülüklə bağlı olan bütün əsərlərinin metro-ritmik xüsusiyyətlərində, melodik dilində, alətlərin tembrindən məqsədyönlü şəkildə istifadə olunmasında, orkestrləşmədə müşahidə etmək mümkündür. "Ömür yolu" simfonik poemasında qədim türk yallısının intonasiyalarına, "Atatürk" simfoniyasında türk aksak ritminin istifadəsinə, "Simfonik rəqs"də xalq melodiyalarının elementlərinə əsaslanması bəstəkarın musiqi folkloruna olan münasibətinin bariz nümunəsidir və neofolklorizmə meyil etməsini nümayiş etdirir. Bəstəkarın bir çox əsərlərində ("Azərbaycanım", "Cəngi sədası", "Yüksək-yüksək təpələrə" türküsünün xor və orkestr üçün işləməsi, "Simfonik rəqs"), səs və

kamera orkestri üçün yazılmış vokal əsərlərində türk xalq melodiyalarının xüsusiyyətləri nəzərə çarpır.

10. Tanınmış musiqi nümunələrindən sitat kimi istifadə olunması da V.Allahverdiyevin yaradıcılığında rast gəlinir. Bunun ən bariz və gözəl nümunəsi "Ömür yolu" simfonik poemasında görkəmli bəstəkar-müğənni Müslüm Maqomayevin "Azərbaycan" mahnısından sitat kimi istifadə edilməsidir. Həmçinin "Yüksək-yüksək təpələrə" türküsünə eyniadlı xor və simfonik orkestr üçün əsərində və "Simfonik rəqs"də, "Gül açdı" qədim xalq mahnısına fortepiano üçün variasiyalarda əsaslanmışdır. Dördsəsli qarışıq xor və xalq çalğı alətləri orkestri üçün yazdığı "Azərbaycan torpağıyam" odasında isə Malatya bölgəsində geniş yayılmış "Malatya, bulunmaz eşin" türküsünün melodik əsasına istinad edilmişdir.

11. V.Allahverdiyev yaradıcılığında simfonik əsərlərə daha çox üstünlük verir. Onun simfonik əsərlərinin ("Atatürk", "Cəngi sədası", "Simfonik rəqs") metro-ritmik quruluşu qədim türk ritmlərinə əsaslanır. Türk xalq musiqisinin səslənişini əldə etmək üçün bəstəkar orkestrin müxtəlif alətlərini sintez edir. Belə ki, V.Allahverdiyev müxtəlif tərkibli alətlər qrupunu birləşdirərək, tembr çalarlarının dolğunluğu ilə fərqlənən səslənmə tərzi yaradır. "Atatürk" simfoniyasında zərb alətlərinin partiyasında ostinatlıqdan geniş istifadə olunub və bu cəhətə "Ömür yolu" simfonik poemasında da rast gəlinir. Türk musiqisinin səsləniş tərzini yaratmaq üçün "Cəngi sədası" əsərində alətlərin tembr xüsusiyyətlərini uyğunlaşdırmışdır. Bəstəkar bu əsərində balaban, tar kimi milli çalğı alətlərini fortepiano ilə zərb alətlərinin eyni ritmik şəkilli vurğusu üzərində cəmləşdirərək, cəngi rəqsinin ruhunu canlandırmağa nail olmuşdur. "Cəngi sədası"nda milli koloriti ifadə etmək üçün bəstəkar qanun, saz və ud alətləri qrupuna intonasiya bağlılığı yaradan elementlər daxil edir. "Qarabağ balladası" əsərinin mikrointonasiyalara əsaslanan musiqi dilində türk xalq musiqisinin intonasiyaları nəzərə çarpır. "Muğamsayağı" əsərində isə milli alətlərlə Avropa alətlərinin maraqlı sintezini yaradaraq fərqli səslənişə nail olmuşdur.

12. Müəllimi İ.Hacıbəyovun yaradıcılığında polifoniyanın aparıcı yer tutması V.Allahverdiyevə də öz təsirini göstərmişdir. Xüsusilə bəstəkarın 1 saylı simli kvartetinin ikinci hissəsində

polifonik üslubun xüsusiyyətlərinin təsiri nəzərə çarpır. "Qarabağ balladası" əsərində polifonik inkişaf üsullarının tətbiqi muğamın xüsusiyyətləri ilə uyğunlaşdırılmışdır. "Azərbaycan torpağıyam" odasında xoru təşkil edən səslərin münasibəti və səslənmə tərzi mükəmməl polifonik işlənmələrə əsaslanmışdır.

13. V.Allahverdiyevin simfonik əsərlərində imitasiya əsas rol oynayır. "Ömür yolu" simfonik poemasında, "Simli orkestr üçün musiqi"də orkestrdə imitasiyalı gedişlərdən və kanonik imitasiyalardan çox istifadə edilir. Bəstəkar orkestr vasitəsilə, bir növ, milli musiqimizə xas olan tar və kamançanın imitasiyalı səslənişini xatırladan uyğunluq yaradır. Orkestrin imkanlarına mükəmməl bələd olan V.Allahverdiyev milli musiqi alətlərinin səs tembrini simfonik orkestrin alətlərinə uyğunlaşdırmağa nail olmuşdur. O, ağac nəfəs alətlərinin ifasında tütəyin tembrini təqlid edərək milli ruhlu səsləniş yaratmış, zurna alətini isə türkçülüyü tərənnüm edən vasitə kimi bir çox əsərlərinə daxil etmişdir.

14. Poetik mətnin melodik xəttlə bağlılığı V.Allahverdiyevin vokal əsərlərində daha çox nəzərə çarpır. Bəstəkar mətn daxilində ifadə olunan fikirləri melodik xəttin inkişafı ilə uyğunlaşdırır və musiqi ilə ədəbi mənbə arasında qarşılıqlı əlaqə yaradır.

15. Aşıq havaları üçün səciyyəvi olan kvarta-kvinta, sekunda münasibətlərinə, melodiyanın unison şəkildə səslənməsinə V.Allahverdiyevin bir çox əsərlərində ("Simfonik rəqs", "Simli orkestr üçün musiqi", "Azərbaycanım" mahnısı) rast gəlinir. "Azərbaycan torpağıyam" odasında orkestri təşkil edən alətlərin tembr xüsusiyyətlərindən bacarıqla istifadə edən bəstəkar saz alətinin ifa xüsusiyyətlərini əldə etməyə nail olmuşdur.

16.Əsərlərin forma-quruluşu baxımından V.Allahverdiyev klassik çərçivədən kənara çıxmamışdır. Ənənəvi formalar daxilində bəstəkar müxtəlif obrazlı məzmunu canlandırmağa nail olmuşdur. Simfonik əsərlərində sonata forması daxilində güzgülü reprizaya üstünlük verilməsi ("Atatürk" simfoniyası, "Ömür yolu" simfonik poeması, "Simli orkestr üçün musiqi") bir çox əsərlərində müşahidə olundu.

17. Bəstəkar vokal əsərlərində mahnı janrı üçün səciyyəvi olan ənənəvi kuplet formasından kənara çıxaraq, sadə ikihissəli ("O yollar") və üçhissəli formalara ("Qəmli hekayə"), mürəkkəb üçhissəli

formaya ("Azərbaycanım"), 3-5 hissəli aralıq formaya ("Hara gedirsən") müraciət etmişdir.

Beləliklə, Vasif Allahverdiyevin yaradıcılığının səciyyəvi xüsusiyyətlərinin əsas üç istiqaməti qeyd olunmalıdır :

1. Türkçülük məfkurəsinə əsaslanması;
2. Yaradıcılığında ənənə və varislikdən irəli gələrək, milli musiqinin xüsusiyyətləri ilə düşüncə tərzini uzlaşdırması;
3. Simfonik əsərlərində orkestrin imkanlarını və alətlərin səs tembrini uyğunlaşdırmaqla, milli musiqimizə xas olan xüsusiyyətlərin yaradılması.

Azərbaycan musiqi mədəniyyəti kontekstində fərdi dəst-xəttini nümayiş etdirən Vasif Allahverdiyevin əsərləri türkçülük və turançılıq fikirlərinə boyanmış milli özünəməxsusluğun ifadəsi kimi qəbul oluna bilər. Müraciət etdiyi hər bir sahəyə türkçülük ideyası baxımından yanaşan Vasif Allahverdiyevin yüksək yaradıcı münasibətlə yazdığı əsərlər müasir dövr Azərbaycan musiqi tarixinin layiqli səhifələrindən biri kimi qiymətləndirilir.

**Dissertasiyanın məzmununa uyğun olaraq müəllifin aşağıdakı elmi əsərləri nəşr olunmuşdur:**


1. Məmmədova, Ş.V. Müasir Azərbaycan bəstəkarlıq məktəbinin nümayəndəsi – Vasif Allahverdiyev // "Musiqişünaslığın aktual problemləri" Respublika elmi konfransının materialları, – Bakı: – 4-5 dekabr, – 2019, – s. 129-133.
2. Məmmədova, Ş.V. Vasif Allahverdiyevin mahnı yaradıcılığının quruluş xüsusiyyətlərinə dair // – Bakı: Konservatoriya, – 2021. № 2 (51), – s. 76-89.
3. Məmmədova, Ş.V. Vasif Allahverdiyevin xalq çalğı alətləri orkestri üçün yazdığı əsərlərdə vətən obrazının təcəssümü // – Naxçıvan: Axtarışlar, – 2021. № 4 (15), – s. 157-162.
4. Мамедова, Ш.В. Некоторые черты стиля современного Азербайджанского композитора Васифа Аллахвердиева // Материалы XIII Международной научной конференции «Искусство глазами молодых», – Красноярск: – 29-30 апреля, – 2021, – s. 48-51.
5. Məmmədova, Ş.V. Vasif Allahverdiyevin romans yaradıcılığının bəzi quruluş xüsusiyyətləri (iki romans və

“Sənsizlik” elegiyasi nümunəsində) // – Bakı: Sənət Akademiyası, – 2022. № 1 (16), – s. 123-135.
6. Məmmədova, Ş.V. Vasif Allahverdiyev yaradıcılığında Heydər Əliyevin obrazı // – Bakı: Musiqi dünyası, – 2022. № 2 (90), – s. 107-110. URL: http://www.musigi-dunya.az/1_2022.pdf
7. Məmmədova, Ş.V. Vasif Allahverdiyevin “Ömür yolu” simfonik poemasının quruluş xüsusiyyətləri // – Bakı: Musiqi dünyası, – 2022. № 2 (91), – s. 59-63. URL: http://www.musigi-dunya.az/1_2022.pdf
8. Мамедова, Ш.В. Некоторые структурные особенности «Музыки для струнного оркестра» Васифа Аллахвердиева // – Москва: Музыка и время, – 2022. № 8, – s. 32-35. URL: http://music.tgizd.ru/ru/arhiv/21426
9. Məmmədova, Ş.V. Bəstəkar Vasif Allahverdiyevin yaradıcılığında türkçülüyün təzahürü // “Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemlər” XXI Beynəlxalq elmi-praktiki konfransın materialları, – Bakı: – 26 aprel, – 2022,– s.83-86.
10. Məmmədova, Ş.V. Vasif Allahverdiyevin “Atatürk” simfoniyasının üslub xüsusiyyətləri // – Bakı: Mədəniyyət dünyası, – 2022. № 41, – s. 115-124.
11. Məmmədova, Ş.V. Vasif Allahverdiyevin yaradıcılığında romantizm cizgilərinin ifadəsində lirik obrazlılığın təcəssümü // Türkiye, Kars: Turan Stratejik Araştırmalar Merkezi (Uluslararası Bilimsel Hakemli Mevsimlik Dergi), – 2022. Cilt: 14, Sayı: 54, – s. 263-267. URL: https://turansam.com/wp-content/uploads/2022/08/TURAN-SAM_54.pdf
12. Məmmədova, Ş.V. Vasif Allahverdiyevin “Muğamsayağı” əsərinin üslub xüsusiyyətləri // 12th İnternational Conference on Culture and Civilization, – Lahıc, İsmayıllı: – 21-22 iyun, – 2022, – s. 171-173. URL:https://tr.europenjournal.com/_files/ugd/614b1f_609ee93669804ecfaeb076361063f239.pdf
13. Məmmədova, Ş.V. Vasif Allahverdiyevin kiçik həcmli əsərləri // – Naxçıvan: Axtarışlar, – 2022. № 2 (16), – s. 267-271.

Dissertasiyanın müdafiəsi ___ ________ 2024-cü il tarixində saat ____ Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.36 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1014, Bakı, Ş.Bədəlbəyli küç., 98.

Dissertasiya ilə Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat ____ _________ 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 24.09.2024

Kağızın formatı: 60x84 1/16

Həcm: 43 859 işarə

Tiraj: 100